**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№368/7** **30 sentyabr 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin tərkibində dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2024-cü il 13 avqust tarixli 10-1/2-01/1/087/2024 nömrəli Auditorlar Palatasının Şurası yanında Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin tərkibinə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətindən nümayəndənin ayrılması barədə məktubuna uyğun olaraq Maliyyə Monitorinqi Xidmətinin 2024-cü il 27 avqust tarixli 3-21-28/2-852/2024 nömrəli məktubu ilə Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin Nəzarət orqanları ilə iş şöbəsinin mütəxəssisi Sübhan Qarayevin üzv qismində daxil edilməsi, habelə Palatanın Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri Həbibə Məmmədovanın ƏL/TMM üzrə komitənin tərkibinə üzv qismində daxil edilməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin Nəzarət orqanları ilə iş şöbəsinin mütəxəssisi Sübhan Qarayev və Palatanın Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri Həbibə Məmmədova Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2023-cü il 28 dekabr tarixli 362/2 nömrəli Qərarı ilə yaradılmış ƏL/TMM üzrə komitəyə üzv qəbul edilsinlər.

2. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2024-cü il 21 fevral tarixli 363/1 nömrəli Qərarı ilə təsdiq edilmiş Palatanın Şurası yanında ƏL/TMM üzrə komitənin Əsasnaməsinin 4.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

- “4.2. Komitənin tərkibi komitənin sədri, komitə sədrinin müavini və yeddi nəfər üzvdən ibarətdir”.

3. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinə (H.Məmmədova) tapşırılsın ki, bu qərarın ƏL/TMM üzrə Komitənin üzvlərinə təqdim edilməsi təmin edilsin.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**